**UOT 94"19/..."**

# ELM-TƏHSİL SAHƏSİNDƏ ABŞ-AZƏRBAYCAN ƏMƏKDAŞLIĞI

**B.Ə.BAYRAMOVA**
***Bakı Dövlət Universiteti***
***birce_bayramova@hotmail.com***

*XXI əsrin əvvəllərində Azərbaycan-ABŞ arasında təhsilin inkişafı, şagird, tələbə, o cümlədən müəllimlərin öz bilik və bacarıqlarını, dünya görüşlərini, Amerika xalqları ilə ünsiyyət yaradaraq onların mədəniyyəti, ictimai baxışını gücləndirmək məqsədilə bir sıra layihə, proqramlara imza atıldı.*

*2001-2004-cü illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə ABŞ-ın Beynəlxalq Təhsil Proqramları (ACCELS, FLEX, İREX və s.) arasında qurulmuş əməkdaşlıqlar davam etdi. Bunlardan biri də İREX proqramı oldu. Proqramın əsas məqsədlərindən biri xalqlararası qarşılıqlı etibarın və mehriban əlaqələrin yaradılmasına xidmət etmək idi.*

*2001-ci il iyunun 9-da Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Beynəlxalq Təhsil üzrə Amerika Şuraları (ACCELS) arasında təhsil sahəsində əməkdaşlıq haqqında saziş imzalandı. ABŞ-ın JFDP, TEA, PIE kimi proqramları ilə əlaqələr quruldu.*

*2008-ci il iyunun 19-da Bakı şəhərində "Azərbaycan Respublikası hökuməti və Amerika Birləşmiş Ştatları hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş" imzalandı.*

**Açar sözlər:** elm və texnologiyalar, təhsil proqramı, ACCELS,İREX, beynəlxalq proqram

Hələ 90-cı illərin əvvəllərində Azərbaycanda elmi-tədqiqat institutlarına maliyyə vəsaiti az ayrılırdı. Bunun da nəticəsində tədqiqat mərkəzlərinə əhəmiyyətli dərəcədə ziyan dəymişdi. Elm və texnologiyaların inkişaf konsepsiyasını bazar iqtisadiyyatı prinsipləri ilə hazırlamaq gərəkli idi. Lakin sonradan, yəni 2000-ci ildən sonra elm və texnologiyaların inkişafı məsələsinə daha ciddi yanaşıldı. Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra təhsilin səviyyəsini qaldırmaq məqsədilə müxtəlif islahatlar həyata keçirməyə başladı. Azərbaycan Avropa və Amerika ölkələri ilə bu sahədə davamlı olaraq səfərlər, görüşlər təşkil etdi. ABŞ-Azərbaycan əlaqələrinin inkişafında mədəni əlaqələr öz yerini tutduğu kimi bu sahədə də ölkələrarası tədbirlər mütəmadi olaraq keçirildi.

Məlum olduğu kimi, Amerika Şurası çoxillik regional ekspertizaya və inkişaf təcrübəsinə dayanaraq bütün dünyada təhsil və elmi-tədqiqatları beynəlxalq proqramların köməyi ilə irəli sürür. Məhz bunun nəticəsində Amerika,

Avrasiya və Şərqi Avropa ölkələrində müəyyən təşkilatlar arasındakı əməkdaşlıq proqramları təşkil edildi. Bununla bərabər, "layihə hazırlığına və təhsildə yeni ideyaların tətbiqi sahəsinə aid proqramlar üçün məsləhətlər verdi (1).

Azərbaycan-ABŞ arasında təhsilin inkişafı, şagird, tələbə, o cümlədən müəllimlərin öz bilik və bacarıqlarını, dünya görüşlərini, Amerika xalqları ilə ünsiyyət yaradaraq onların mədəniyyəti, ictimai baxışını gücləndirmək məqsədilə bir sıra layihə, proqramlara imza atıldı.

2001-2004-cü illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə ABŞ-ın Beyənlxalq Təhsil Proqramları (ACCELS, FLEX, İREX və s.) arasında qurulmuş əməkdaşlıqlar davam etdi və ya yeniləri ilə sazişlər bağlandı. Bunlardan biri də İREX proqramıdır.

İREX (Beynəlxalq Tədqiqatlar və Mübadilə Şurası) Azərbaycanda 1998-ci ildən fəaliyyət göstərərək ölkələr arasında gənc alimlər və elmi-tədqiqat mərkəzləri ilə əlaqələr qurmağa yardım edən proqramdır (2). Bu proqram həmçinin, bakalavr tələbələri üçün 6 həftə müddətində ABŞ-da demokratik təsisatların necə işlədiyini öyrənmək, Meksika sərhədinə qədər müxtəlif yerlərə səyahət etmək imkanı yaradır (3).

ABŞ Dövlət Departamentinin Təhsil və Mədəniyyət Məsələləri Bürosunun proqramı kimi İREX tərəfindən idarə olunan UGRAD (Qlobal Tələbə Mübadilə Proqramı) Azərbaycan ilə əlaqələrini 90-cı illərin ortasında qurdu. Məqsəd: azərbaycanlı tələbələr mühasibat, kənd təsərrüfatı, turizm idarəedilməsi, beyənlxalq münasibətlər, hüquq, siyasi elmlər və digər sahələr üzrə ABŞ-da bakalavr dərəcəsi üzrə dərəcəsiz təhsil almaq imkanı yaratdı (4).

İREX tərəfindən həyata keçirilən digər proqram-Edmund S.Maski Proqramı (Edmund S.Muskie Graduate Fellowship Proqram) idi. 1998-2008-ci illər ərzində 280-ə yaxın azərbaycanlı gənci özünə cəlb edən bu proqramın məqsədi Avrasiya ərazisində iqtisadiyyat və demokratiyanın inkişafına yardım göstərmək idi. Belə ki, Avrasiyanın digər ölkələri kimi Azərbaycandan olan aspirantlar və mütəxəssislərə ABŞ-da bir il dərədcəsiz, bir və ya iki il müddətində dərəcə almaq üçün təhsil verdi (5).

1998-ci ildən daha bir proqram Azərbaycanda fəaliyyətə başladı: FLEX-Gələcək Liderlərin Mübadilə proqramının məqsədi ABŞ-ın tarixini, cəmiyyətini xarici ölkələr, o cümlədən Azərbayacana çatdırmaq, şagirdlər arasında qarşılıqlı anlaşma yaratmaq idi. Bunun Azərbaycan şagirdlərinə faydası nədən ibarətdir?

Bu proqram vasitəsilə Azərbaycan vətəndaşları da ABŞ xalqı və mədəniyyəti ilə tanış olmaq, dil bazalarını daha da inkişaf etdirmək imkanı yarada bilirlər. Yeri gəlmişkən, Azərbaycanda fəaliyyətə başladığı vaxtdan hər il 20 fiziki məhdudiyyətli yuxarı sinif şagirdləri FLEX proqramı çərçivəsində ABŞ-da təhsil alırlar (6).

2001-ci il iyunun 9-da Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Beynəlxalq Təhsil üzrə Amerika Şuraları (ACCELS) arasında təhsil sahəsində əməkdaşlıq haqqında saziş imzalandı (7). Beləliklə, Azərbaycan ilə ABŞ ara-

sında təhsil əlaqələrinin yeni mərhələsi başladı. ACCELS proqramı ilə “ingilis dilini müəyyən tələblər səviyyəsində bilən tələbə, magistr və aspirantlara, eləcə də elmi tədqiqatla məşğul olan alimlərə müxtəlif proqramlar çərçivəsində ABŞ-da təhsil almaq, yaxud elmi araşdırmalar üçün geniş imkanlar açdı (8)”.

2001-ci il avqustun 1-dən etibarən Azərbaycanda fəaliyyətə başlayan “Project Harmony” təşkilatı “Azadlığın Dəstəklənməsi Aktı” tərəfindən maliyyələşdirildi (8). Bu təşkilat kompyuter avadanlıqlarının təchizatını, məktəblərarası onlayn əməkdaşlığının gücləndirilməsi və bir çox məsələlərdə məktəblərə köməklik göstərdi. 2007-ci ilin yayında təşkilat tərəfindən icra edilən proqram başa çatdı. Hətta bununla əlaqdar iyulun 5-də Təhsil Nazirliyində tədbir keçirildi (9).

Azərbaycan Respublikası Təhsil Nazirliyi müəllimlərin inkişafına biganə qalmayaraq Avropa və Amerika ölkələrinin Təhsil Mərkəzləri bir sıra saziş, memorandumlara imza atdı. ABŞ-ın bir sıra JFDP, TEA, PİE kimi proqramları ilə əlaqələr qurdu:

Gənc Müəllimlərin İnkişaf Proqramı (JFDP) azərbaycanlı müəllimlərin tədris prosesi və dərs metodologiyasına dair bilikləri təkmilləşdirilməsi məqsədi daşıyır (10). Bundan başqa, İREX tərəfindən həyata keçirilən TEA (İxtisaslı Müəllimlər üçün Mükafat proqramı) proqramı 2002-ci ildən etibarən 6 həftəlik azərbaycanlı müəllimlərə ABŞ-da məqsədyönlü kurs keçdi (11).

Vətəndaşşünaslıq və sosial elmlər üzrə orta məktəb müəllimləri və direktorlar üçün nəzərdə tutulan PİE (Təhsildə Partnyorluq Proqramı) Azərbaycan ilə 2001-2004-cü illər ərzində əməkdaşlıq etdi. Azərbaycanlı müəllimlər kimi ABŞ-dan da Azərbaycana müəllimlər bu proqram çərçivəsində təcrübə mübadiləsi apardılar (8).

2003-cü il dekabrın 8-də Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə ABŞ Sülh Korpusu arasında əməkdaşlıq haqqında Memorandum imzalandı (7).

Azərbaycan ilə ABŞ arasında təhsilin inkişafı, gənclər, tələbə, müəllimlər, eləcə də dövlət məmurlarının öz biliklərini artırmaq, ölkələrarası mədəniyyət mübadiləsini genişləndirmək məqsədilə sadalanan proqramlardan əlavə bir çox proqramlar fəaliyyət göstərmişdir. Onlardan Azərbaycan Əlaqələndirmə və Mübadilə Proqramı, Azərbaycan Qadınları Liderliyi Proqramı, Qardaşlaşmış Məktəblər Proqramı (12), Kiçik Qrantlar (13), Müasir Problemlər üzrə Tədqiqat (Cİ), Mütəxəssislərin Regional Mübadilə, Hampfrey (humphrey) (14), Fulbrayt (Fulbright) (15), İngilis dili təqaüd proqramlarını və s. misal göstərmək olar (8).

2005-ci il iyunun 15-də “Civilian Research and Development Foundation” (CRDF) təşkilatında CRDF –in və Azərbaycan səfirliyinin birgə təşkilatçılığı ilə “Azərbaycan Respublikasında elm və texnologiyaların inkişafına” həsr olunmuş Dəyirmi masa keçirildi. Tədbirdə CRDF-in prezidenti Çarlz Ouens Azərbaycanın iqtisadi inkişafı, BTC boru kəmərinin istifadəyə verilməsindən söhbət açaraq bunun elm və texnologiyaların da inkişafına da müsbət təsir edəcəyini bildirdi (16, 225). Azərbaycanın ABŞ-dakı səfiri H.Paşayev

çıxışında ölkədə “davamlı iqtisadi artıma nail olmaq üçün elm və texnologiyaların inkişafının prioritetə çevrilməsini” və bu sahədə nəzərdə tutulan konsepsiyanın hazırlanmasının Azərbaycan Dövlət Neft Fondu (ADNF) tərəfindən maliyyələşdirilməsini vurğuladı. H.Paşayev bu layihənin hazırlanmasına CRDF-i dəvət etdi (16, 225).

Bu məsələ ilə əlaqədar Ç.Ouens 2005-ci ilin oktyabrında Ukraynada keçiriləcək elm sahəsinə dair konfransa Azərbaycan tərəfini dəvət etdi.

Ümumiyyətlə, qeyd olunmalıdır ki, CRDF 2005-ci ilə qədər Azərbaycana 1,8 milyon ABŞ dolları məbləğində vəsait ayırdı. Bu vəsaitin 70 faizi institusional quruculuğu (bunun da 59 faizi Azərbaycan Milli Elm Fonduna -AMEF (Azerbaijan National Science Foundation-ANSF), 20 faizi əməkdaşlıq qrantları, 7 faizi nüvə silahlarının yayılmaması, 7 faizi sənaye proqramlarına xərcləndi. Bu barədə baş proqram meneceri Çarlz Dunlap ətraflı məlumat verdi (16, 226).

Görüşdə sənaye proqramı üzrə menecer Pol Kleyn STEP (Science and Technology Entrepreneurship Proqram) proqramının Azərbaycanda elm və texnologiyalar sahəsində sahibkarlığın inkişafını nəzərdə tutan tədbirlərin həyata keçirilməsində maliyyə vəsaitinin ayrılmasını qeyd etdi (16, 226).

2002-ci ilin oktyabrından CRDF-in dəstəyi ilə yaradılan qeyri-hökumət təşkilatı olan AMEF (ANSF)-in vitse-prezidenti Fuad Muştaqov Azərbaycanda elmi sahədə institusional quruculuğu dəstəkləyərək “ikitərəfli qrantların verilməsi, alimlərin müsabiqə əsasında ABŞ universitetləri və şirkətlərində staj keçməsi, avadanlıqların alınması, regional əməkdaşlıq əsasında tədqiqatların aparılması” və s. barədə söhbət açdı (16, 227).

ABŞ-Azərbaycan Ticarət Palatasının (USACC) İcraçı Direktoru Seymur Xəlilov öz çıxışında Harvard Universiteti ilə əməkdaşlıq nəticəsində bir sıra Azərbaycan nümayəndəlirinin həmin təhsil ocağında elmi-tədqiqat proqramlarında iştirak etməsindən danışdı (16, 228).

İyunun 15-də keçirilən görüşdən belə nəticəyə gəlmək olar ki, həm Azərbaycan tərəfi, həm də ABŞ tərəfi ölkələrarası əlaqələrin inkişaf etdirilməsində məhz elm, təhsil sahəsindən başlanması qənaətinə gəldilər. “Omni Communications” şirkətinin “SMART region-GUAM layihəsinin inkişafında səyləri, GUAM ölkələrinin alimləri üçün SMART regionuna daxil olan Nyu-Cersi, Merilənd, Pennsilvaniya və Delaver ştatlarının universitet, xəstəxanaları və laboratoriyalarda çalışan alimlər ilə əməkdaşlıq imkanlarının yaradılması məsələsi müzakirə olundu (16, 228).

2006-cı il iyunun 22-də Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə “Microsoft Azerbaijan” arasında təhsil sistemində müasir informasiya texnologiyalarının inkişafı sahəsində əməkdaşlıq haqqında Anlaşma memorandumu imzalandı (7).

2007-ci il mayın 9-dan 20-dək ABŞ konqresi tərəfindən maliyyələşdirilən ACCELS tərəfindən icra olunan “Açıq Dünya” proqramının 5 nəfərdən ibarət işçi qrupu ABŞ-ın Hyuston və Vaşinqton şəhərlərində işgüzar səfərdə

olacağı barədə Mədəniyyət və Turizm Nazirliyinə nota (məktub) göndərildi (17). Proqramın əsas məqsədlərindən biri Amerika-Azərbaycan xalqları arasında qarşılıqlı inam və xoş münasibətlərin qurulmasına xidmət etmək idi.

2007-ci ildə mayın 24-də Vaşinqton şəhəri-Kolumbiya Dairəsinin meri Adrian Fenti ilə Azərbaycan səfirliyi arasında görüş keçirildi. Görüşün əsas məqsədi yeni təyin olunmuş mer ilə tanış olub iki ölkə arasında siyasi, iqtisadi və mədəni əlaqələrdən söhbət açmaq idi. Azərbaycanın ABŞ-dakı səfirliyi tərəfindən "Vaşinqton şəhərinin sosial-mədəni həyatında, keçirilən şəhər proqramlarında yaxından iştirak etməyə hazır olduqları" nəzərə çatdırıldı. Bu istiqamətdə Vaşinqton orta məktəblərindən birini "hamiliyə götürmək", Azərbaycan məktəbələri ilə sıx əlaqələr saxlamaq və s. haqda geniş söhbət açıldı (18, 118).

2008-ci il iyunun 19-da Bakı şəhərində "Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş" imzalandı və saziş Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 24 may 2010-cu il tarixli 924 saylı sərəncamı ilə təsdiq edildi. Sazişdə Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti hər iki xalq arasında qarşılıqlı anlaşma və hörməti qiymətləndirərək və mövcud dostluq əlaqələrini davam etdirmək və möhkəmləndirmək, qarşılıqlı maraq əsasında təhsil sahəsində əlaqələri inkişaf etdirmək, "Azərbaycan Fulbrayt proqramını Azərbaycan tələbələrinin Xaricdə Təhsili üzrə Dövlət Proqramı vasitəsilə azərbaycanlı tələbələrin Amerika universitetlərində təhsil almasını dəstəkləmək; Fulbrayt proqramının həm Azərbaycan, həm də ABŞ tələbələrinin mübadiləsi yolu ilə dəstəkləmək" və s. nəzərdə tutuldu (19).

Beləliklə, 2001-2008-ci illərdə Azərbaycan ilə ABŞ elm-təhsil sahəsində böyük uğurlara imza atdı. İki dövlətin xalqları arasında xoş ünsiyyətlərin qurulması və saxlanması əməkdaşlıqların genişlənməsi və onun inkişaf etdirilməsinin mühüm nəticəsi oldu.

## ƏDƏBİYYAT


1. Təşkilat haqqında// http://www.americancouncils.az/az/about-the-organization/
2. What is the IREX (International Research and Exchanges Board)// http://www.irex.az/
3. İREX yeni təhsil layihəsini təqdim etdi// http://www.azadfikir.org/az/xbrlr/243-irex-yeni-təhsil-layihəsini-təqdim-etdi
4. Qlobal Tələbə Mübadilə Proqramı (UGRAD) artıq elan olundu // http://telebe.az/qlobal-t%C9%99l%C9%99b%C9%99-mubadil%C9%99-proqrami-ugrad-artiq-elan-olundu/
5. Amerika Birləşmiş Ştatlarında təhsil sistemi// http://www.muallim.edu.az/arxiv/2011/07/33.htm
6. Gələcək Liderlərin Mübadilə Proqramı (FLEX)// http://www.americancouncils.az/az/flex-alumni/
7. Təhsil sahəsində imzalanmış saziş və protokollar// http://www.edu.gov.az/view.php?lang=az&menu=search&page=10
8. "Azərbaycan müəllimi" qəzetinin 9 aprel 2010-cu il tarixli sayında təhsil naziri Misir Mərdanovun çıxışı. Azərbaycan təhsili: yaxın keçmişə, bu günə və gələcəyə bir baxış//http://www.edu.gov.az/view.php?lang=az&menu=12&id=1588

9. “Project Harmony” təşkilatı tərəfindən icra edilən proqramın başa çatması ilə əlaqədar tədbir keçirilir. 05 iyul 2007// http://az.apa.az/news.php?id=63290
10. Gənc Müəllimlərin İnkişaf Proqramı// http://www.americancouncils.az/az/open-world/
11. ABŞ hökuməti Edmund Muskie və TEA proqramları üzrə namizədlərin qəbulunu elan edib// http://avciya.az/index/news/inthecountry/1936-ab350-h246kum601ti-edmund-musckie-v601.html
12. Ümumi məlumat// http://www.edu.gov.az/view.php?lang=az&menu=256
13. ABŞ-ın ölkəmizdəki səfirliyi Kiçik Qrantlar Proqramı üzrə müsabiqə elan edib// http://az.trend.az/news/politics/815556.html
14. The Humphrey Fellowship Proqram at the Washington College of Law// http://www.wcl.american.edu/scholars/humphrey/
15. Fulbright by Country// http://fulbright.state.gov/participating-countries/europe-and-eurasia/azerbaijan.html
16. XİN TAİ,2005-ci il üçün cari arxivi, ABŞ qovluğu, f.28.s11
17. AR Mədəniyyət və Turizm Nazirliyinin 2007-ci il üçün cari arxivi, ABŞ qovluğu, f.13.s.1. Bakı-Hyuston Qardaşlaşmış Şəhərlər Assosiasiyasının Prezidenti İradə Axundovanın Mədəniyyət və Turizm naziri Ə.Qarayevə məktubu, №282/x.08.05.2007
18. XİN TAİ, 2006- cı il üçün cari arxivi, f.28, s11, Vaşinqton şəhəri-Kolumbiya Dairəsinin meri Adrian Fenti ilə görüş
19. 2008-ci il iyunun 19-da Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə //
http://e-qanun.az/print.php?internal=view&target=1&docid=19594&doctype=0

## СОТРУДНИЧЕСТВО АЗЕРБАЙДЖАНА И США В ОБЛАСТИ НАУКИ И ОБРАЗОВАНИЯ

**Б.А.БАЙРАМОВА**

**РЕЗЮМЕ**

С начала XXI века с целью развития образований и усиления знаний и умений, в том числе мировоззрения школьников, студентов и преподавателей между США и Азербайджаном были подписаны некоторые соглашения и проекты.

Между Министерством Образования Азербайджанской Республики и Международными Образовательными Программами США как ACCELS, FLEX были продолжены сотрудничества и в 2001-2004 гг. Одна из этих программ была программа IREX. Одна из основных целей программы была служить созданию взаимного доверия и дружественных отношений между народами.

9 июня 2001 г. между Министерством Образования Азербайджанской Республики и Американским Советов по Международному Образованию (ACCELS) было подписано соглашение о сотрудничестве в сфере образования. Были установлены связи с такими программами США как JFDP, TEA,PIE.

19 июня 2008 года в городе Баку было подписано соглашение « о сотрудничестве в сфере образования между правительством Азербайджанской Республики и правительством США».

**Ключевые слова:** наука и технологии, образованная программа, ACCELS,İREX, международная программа

# COOPERATION OF AZERBAIJAN AND THE USA IN THE FIELD OF SCIENCE AND EDUCATION

**B.A.BAYRAMOVA**

**SUMMARY**

Since the beginning of the XXI century, with the aim of developing formations and strengthening knowledge and abilities, including outlooks of schoolboys, students and teachers, the USA and Azerbaijan have signed some agreements and projects.

The cooperation between the Ministry of Education of the Azerbaijan Republic and the International Educational programs of the USA, such as ACCELS, FLEX continued in 2001-2004 . One of these programs was IREX. One of the main objectives of the program was to serve creation of mutual trust and friendship between people.

On June 9, 2001, the Ministry of Education of the Azerbaijan Republic and the American Councils about the International Formation (ACCELS) signed a cooperation agreement in the education sphere. Communications with such programs of the USA as JFDP, TEA, PIE have been established.

On June 19, 2008 the agreement «About Cooperation in the Sphere of Education between the Government of the Azerbaijan Republic and the Government of the USA» was signed in Baku.

**Key words:** Science and technologies, an established program, ACCELS, İREX, the international program